# Qlobal diplomatiyada beynəlxalq təşkilatlarla etibarlı tərəfdaşlıq




**2024-cü il Azərbaycanın siyasi həyatında olduqca əhəmiyyətli yer tutur. Ötən il daxili və xarici siyasətdə əldə olunan uğurlar ölkəmizin qarşısında yeni perspektivlər açdı.**

Xüsusilə ən əhəmiyyətli nailiyyət kimi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Bakıda keçirilməsini göstərmək olar. Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində bu məsələ barədə sualları ətraflı şəkildə cavablandırıb. Nəzərə almaq lazımdır ki, ölkə başçısı bir neçə ildir yanvarın ilk yarısında müsahibəsində ötən ilin ən vacib hadisələrindən, eləcə də cari ilin prioritetlərindən bəhs edir. Bu xüsusda, Prezidentin COP29-la bağlı ətraflı danışması tədbirin əhəmiyyətini vurğulayır.

**(davamı 6-cı səhifədə)**




# Qlobal diplomatiyada beynəlxalq təşkilatlarla etibarlı tərəfdaşlıq

**(əvvəli 1-ci səhifədə)**

Dövlət başçısı bildirib ki, COP29 böyük bir çağırış idi. Azərbaycan hökumətinin qarşısındakı başlıca vəzifə isə bu çağırışı uğura, yeni fürsətlərə çevirməkdən ibarət idi. Amma ilk növbədə beynəlxalq tədbirin layiqincə keçirilməsi zərurəti gündəmdə idi. Əvvəlki COP-larda ev sahibi ölkənin hazırlıq işlərini tamamlamaq üçün təqribən 2 il vaxtı olurdu. Azərbaycan isə bütün işləri cəmi 11 ay ərzində yekunlaşdırdı. Tədbirin əhatə dairəsinin genişliyini də nəzərə alanda bu, heç də asan deyildi. Üstəlik, təşkilatçılıq işləri ilə paralel ölkəmiz həm də konfransın boykot edilməsi barədə çağırışlarla da məşğul oldu. Avropa Kommisiyasının, eləcə də Fransanın Azərbaycan üzərində təzyiq formalaşdırmaq cəhdləri davam edirdi, bu məqamda ölkəmiz beynəxalq təşkilatlarla əlaqələrindən istifadə etdi. Dövlət başçısı yerli jurnalistlərə müsahibəsində bu məsələni belə şərh edib: "Yəni biz hazırlıq işlərinə başladıq və Qlobal Cənub çərçivəsində olduqca fəal iş apardıq. Biz 4 il ərzində Qoşulmama Hərəkatında sədrlik etmişik. Bu, böyük uğur idi və üzv dövlətlərin yekdil qərarı ilə bizim sədrliyimiz daha bir il uzadıldı. Eyni zamanda Avropa siyasətində fəal iştirak edən bir ölkə kimi Azərbaycan Avropa İttifaqının 10 üzv ölkəsi ilə strateji tərəfdaşlıq haqqında bəyannamə imzalayıb və qəbul edib. Biz hesab etdik ki, bu iş uğurla nəticələnə bilər".

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra xarici siyasətinin əsas prioritetlərindən biri beynəlxalq təşkilatlarla əməkdaşlıq qurmaq və inkişaf etdirmək olub. Ölkəmiz coğrafi mövqeyinə, zəngin enerji resurslarına və multikultural dəyərlərinə görə beynəlxalq arenada mühüm mövqe tutaraq müxtəlif təşkilatlarla fəal əməkdaşlıq edir. Bu əlaqələr dövlətimizin siyasi, iqtisadi və mədəni maraqlarını qorumaqla yanaşı, regional və qlobal problemlərin həllində də iştirakını təmin edir. Daha detallı nəzər salsaq, Azərbaycan 2 mart 1992-ci ildə BMT-yə üzv olub və bu təşkilat çərçivəsində aktiv fəaliyyət göstərir, bir sıra proqram və qurumları ilə də əməkdaşlıq edir. Azərbaycanın təşəbbüsü ilə 2008-ci ildə BMT Baş Assambleyasında "Mədəniyyətlərarası dialoqun təşviqi" adlı qətnamə qəbul edilib. 2012-2013-cü illərdə isə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi regional və qlobal təhlükəsizlik məsələlərinin müzakirəsində iştirak edib.

2001-ci ildən etibarən Azərbaycan Avropa Şurasına üzv qəbul olunub və Avropa dəyərlərinin təşviqinə yönəlmiş fəaliyyətlərdə, AŞ Parlament Assambleyasının (AŞPA) iclaslarında aktiv iştirak edib. Əsas əməkdaşlıq istiqamətləri isə hüquqlarının qorunması və demokratik təsisatların inkişafıdır. Rəsmi Bakı Avropa İttifaqı ilə "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlıq edir. Enerji təhlükəsizliyi və ticarət sahəsində tərəfdaşlıq bu münasibətlərin əsasını təşkil edir. Azərbaycan NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramına da qoşulub. Əsas diqqət sülhməramlı əməliyyatlarda iştiraka və müdafiə islahatlarına yönəlib. Ölkəmiz Əfqanıstandakı NATO əməliyyatlarına dəstək verib və beynəlxalq təhlükəsizlik tədbirlərində iştirak edib.




Azərbaycan 1992-ci ildə İslam Əməkdaşlıq Təşkilatına üzv olub. Ermənistanın Azərbaycan torpaqlarını işğalı ilə bağlı məsələlərdə İƏT ölkələrinin Azərbaycanın mövqeyini dəstəkləməsi mühüm əhəmiyyət kəsb edir. Ölkəmiz Türk Dövlətləri Təşkilatının təsisçilərindən biridir. Rəsmi Bakı birliyin əsas məqsədi olan türk dövlətləri arasında siyasi, iqtisadi və mədəni inteqrasiyanın dərinləşdirilməsi prosesində lider mövqe tutur. Dövlətimiz təşkilat çərçivəsində Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafına, türkdilli ölkələr arasında vahid informasiya platformasının yaradılmasına, birgə iqtisadi və enerji layihələrinin reallaşdırılmasına xüsusi diqqət ayırır. 2011-ci ildə Qoşulmama Hərəkatına üzv olan ölkəmiz 2019-2023-cü illərdə təşkilata sədrlik edib. Qlobal təhlükəsizlik və sülhün təmin olunması, pandemiya ilə mübarizə sahəsində beynəlxalq həmrəyliyin təşviqi, eləcə də inkişaf etməkdə olan ölkələrin maraqlarının qorunması ilə yaxından məşğul olub. Azərbaycan Müstəqil Dövlətlər Birliyi çərçivəsində də iqtisadi və mədəni əməkdaşlığı davam etdirib.

Ölkəmizin beynəlxalq təşkilatlarla əməkdaşlığı onun həm regional, həm də qlobal miqyasda nüfuzunu artırır. Bu əməkdaşlıqlar vasitəsilə Azərbaycan milli maraqlarını qoruyur, iqtisadi inkişafını sürətləndirir. Diplomatik strategiyası dövlətimizin müasir qlobal sistemdə davamlı inkişafına zəmin yaradır.

Ötən ilin sonu, yəni dekabrın 19-da Azərbaycan daha bir nüfuzlu təşkilata - D-8-ə üzv qəbul edilib. Təşkilat 30 ildən sonra məhz rəsmi Bakının daxil olması ilə sıralarını genişləndirib. İlk növbədə sözügedən alyansın mahiyyətinə nəzər salmaq lazımdır. D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı (Developing Eight) inkişaf etməkdə olan səkkiz müsəlman ölkəsinin birləşdiyi beynəlxalq qurumdur. Təşkilat 1996-cı ildə Türkiyənin təşəbbüsü ilə yaradılıb və 1997-ci ildə Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya, Pakistan və Türkiyənin iştirakı ilə İstanbulda təsis edilib. "D" hərfi "Developing" (inkişaf etməkdə olan), "8" isə üzv ölkələrin sayını ifadə edir. Birlik üzv ölkələr arasında iqtisadi, ticari və sosial əlaqələri gücləndirmək məqsədi daşıyır. Təşkilatın üzvləri ümumilikdə 1,2 milyard nəfəri əhatə edərək dünya müsəlmanlarının 60 faizini təşkil edir. Bu mənada, D-8 həm İslam dünyasında həmrəyliyi, həm də Şərq və Qərb arasında körpü rolunu oynayır. Geosiyasi mövqeyi baxımından tranzit məntəqələrində yerləşən üzv ölkələr dünya iqtisadiyyatında əhəmiyyət kəsb edir. D-8-in əsas hədəfləri üzv ölkələr arasında sərbəst ticarət zonasının yaradılması, iqtisadi inteqrasiyanın təşviqi və qlobal bazarlara inteqrasiyanın təmin edilməsidir. 2020-2030-cu illər üçün qəbul edilmiş "Yol Xəritəsi"ndə üzv ölkələr arasında iqtisadi əlaqələrin daha da dərinləşdirilməsi, iqtisadiyyatın diversifikasiyası və texnoloji inkişaf sahələrinə diqqət ayrılıb. Təşkilat, həmçinin tərkibini genişləndirməyi və daha çox ölkəni iqtisadi əməkdaşlığa cəlb etməyi qarşıya məqsəd qoyub. 19 dekabr 2024-cü ildə Misirin paytaxtı Qahirədə keçirilən XI Zirvə toplantısında Azərbaycan yekdilliklə D-8-in üzvü seçilməsi Azərbaycanın beynəlxalq mövqeyinin güclənməsinin və dünya ölkələri ilə əməkdaşlığının genişlənməsinin bariz nümunəsidir. Prezident İlham Əliyev yanvarın 7-də yerli jurnalistlərə müsahibəsində bu əməkdaşlığın əhəmiyyətinə də toxunub: "İndi heç kimə sirr deyil ki, yeni dünya nizamı formalaşdırılır. Hesab edirəm ki, biz bu prosesin başlanğıcındayıq, bir çox boşluqlar yaranmaqdadır və yaranacaq… Hesab edirəm ki, D-8 də bu boşluğu doldura bilər və bu ölkələrdə yenə də deyirəm, 1 milyarddan çox, bəlkə də 1 milyard 300 milyon insan yaşayır. Müsəlman ölkələrinin iqtisadiyyatının 60 faizi D-8-dədir, əhalinin 60 faizi yenə də D-8 ölkələrindədir. Ona görə bu, bir fürsətdir. Bu fürsəti qaçırmaq olmaz, vaxt itirmək olmaz və biz bu gündəliklə bu təşkilata üzv oluruq. Hesab edirəm ki, bizim fikirlərimiz və təkliflərimiz diqqətlə nəzərə alınacaqdır".

Dövlət başçısının da qeyd etdiyi kimi, D-8 ölkələri ilə iqtisadi əməkdaşlıq Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasını gücləndirəcək. Ölkəmiz təşkilat üzvləri ilə sərbəst ticarət, investisiya və texnologiya mübadiləsi sahələrində əməkdaşlıq edəcək. Bu, Azərbaycanın ixrac potensialının artırılmasına və qeyri-neft sektorunun inkişafına töhfə verəcək. Azərbaycan Şərq və Qərb arasında körpü rolunu oynayır. D-8-ə üzvlük bu mövqedən daha geniş istifadəyə və regional nəqliyyat layihələrini reallaşdırmağa imkan yaradacaq. Bakı-Tbilisi-Qars dəmir yolu və Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi kimi layihələr üzv ölkələrlə əməkdaşlıq üçün yeni perspektivlər açacaq. Eyni zamanda Azərbaycanın D-8-dəki iştirakı İslam həmrəyliyinə, regional sabitliyə və iqtisadi tərəqqiyə mühüm töhfələr verəcək. Bu isə bir daha sübut edir ki, rəsmi Bakı qlobal dairələrin etibarlı müttəfiqi, Azərbaycan da beynəlxalq tədbirlərin uğurla keçirildiyi "sabitlik adası"dır.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**